***Minayə***

***Xocalım***

Ormanların yaşıllaşır,
Qoynunda əğyar dolaşır.
İldönümün yaxınlaşır,
Yolları bağlı, Xocalım!

Qarı düşmən gözü qanlı,
Balaların dizi qanlı,
Anaların özü qanlı.
Başı bəlalı, Xocalım!

Qan ağlayır çölün, düzün,
Dəyişib gecən, gündüzün.
Yolda qalıb ağlar gözün,
Dərdli-məlallı, Xocalım!

Bu nə qovğa, bu nə savaş,
Şırım açıb üzündə yaş.
Ata, ana, bacı, qardaş,
Oğul soraqlı, Xocalım!

Vətən qeyrətli oğullar,
Xiyabanda tutub qərar.
Ürəyin etməsin qubar,
Yalnız ünvanlı, Xocalım!

Yenə də üzün güləcək,
Zəvvarlar geri dönəcək.
Minayə qonaq gələcək,
Əmlik qurbanlı, Xocalım!

***Minayə. Xocalım : şeir // Təhsil problemləri. – 2010. 13-14 mart. – S.9.***